Support for Improvement in Governance and Management
A joint initiative of the OECD and the EU, principally financed by the EU

## 12-ci Xülasə

Yanvar 2011-ci il

### Dövlət satınalmaları

# Hüquqi müdafiə vasitələri

MÜNDƏRİCAT

• Hüquqi müdafiə vasitəsi nədir?
• Kimlərin hüquqi müdafiə vasitəsindən yararlanmaq hüququ var?
• Satınalma ilə bağlı şikayətlərə və məhkəmə işlərinə hansı orqanlar baxır?
• Hansı hüquqi müdafiə vasitələri mövcuddur?
• "Moratorium müddəti" nədir?
• Bağlanmış müqavilələrin etibarsız elan edilməsi
• Nəzarət orqanlarının və satınalan təşkilatların əməl etməli olduqları ümumi prinsiplər

Bu sənəd Avropa İttifaqının maliyyə yardımı ilə hazırlanmışdır. Burada ifadə olunan fikirlər heç vəchlə Avropa İttifaqının rəsmi rəyi kimi qəbul edilə bilməz və İƏİT, yaxud ona üzv dövlətlərin və ya Sigma proqramında iştirak edən benefisiar ölkələrin fikirlərini əks etdirməyə bilər.

## Hüquqi müdafiə vasitəsi nədir?

Hüquqi müdafiə vasitələri satınalan təşkilatların bilərək və ya bilməyərək dövlət satınalmaları haqqında qanunvericilik bazasına riayət etmədiyi hallarda təsərrüfat subyektlərinə dövlət satınalmaları qaydalarının və bu qaydalara əsaslanan hüquqlarının icra edilməsini tələb etməsinə imkan verən hüquqi fəaliyyətlərdir.

## Mövcud hüquqi müdafiə vasitələri haqqında məlumatı haradan ala bilərik?

**Hüquqi müdafiə vasitələri haqqında direktivlər və yerli qanunvericilik:** Hüquqi müdafiə vasitələri Aİ qanunvericilik çərçivəsi və bu çərçivəni icra edən yerli qanunlarla əhatə edilir. Aİ-nin hüquqi müdafiə vasitələri haqqında qanunvericilik bazası dövlət sektorunda müqavilələrin təltif edilməsini əhatə edən 89/665/EEC saylı direktiv və kommunal müəssisələrin satınalma prosedurlarını əhatə edən 92/13/EEC saylı direktivdə əksini tapır. Hər iki direktivə 2007/66/EC direktivi ilə düzəliş edilmişdir.

Müəyyən prosedur qaydaları direktivlərdə müəyyən olunsa da, təfərrüatların və konkret prosedur qaydalarının çoxu milli qanunvericilik əsasında icra edilir.

## Hüquqi müdafiə vasitələri direktivlərinin məqsədi nədir?

Hüquqi müdafiə vasitələri direktivlərinin məqsədi müqavilələrin təltif edilməsi prosedurlarında yol verilən qayda pozuntularına qarşı etirazın edilməsinə və pozuntuların mümkün qədər tezliklə aradan qaldırılmasına imkan yaratmaqdır. Bu, belə prosedurların qanuniliyinin və şəffaflığının artmasına gətirib çıxarmalı, biznes mühitində etimad yaratmalı, yerli dövlət sifarişi bazarının xarici rəqabət üçün açıq vəziyyətə gətirilməsi ilə nəticələnməlidir.

Satınalma normalarının icrası üçün mexanizmlərin mövcudluğu təsərrüfat subyektləri üçün vacibdir. Bu mexanizmlər onları müqavilənin təltif edilməsi prosedurunu izləməyə, müqavilənin onlara təltif edilməsi ehtimalının qeyri-qanuni olaraq azaldılmaması üçün satınalma qaydalarına riayət edilməsini tələb etməyə təşviq edir. Beləliklə, bu mexanizmlər həm prosedurların qanuniliyini artırır, həm də rəqabəti təşviq edir.

Bütün hüquqi müdafiə vasitələri:

- aydın və birmənalı olmalıdır, başqa sözlə təsərrüfat subyektləri tərəfindən asanlıqla başa düşülməli və istifadə edilə bilməlidir;
- xüsusən milli mənsubiyyət zəminində ayrı-seçkiliyə yol verməməli, konkret müqavilə təltifi prosedurunda iştirak etmək arzusunda olan bütün təsərrüfat subyektləri üçün əlçatan olmalıdır;
- təsərrüfat subyektləri və/və ya satınalan təşkilatlar tərəfindən yol verilmiş qayda pozuntusu hallarının qarşısının alınmasında və ya aradan qaldırılmasında effektiv olmalıdır.

## Kimin hüquqi müdafiə vasitəsindən yararlanmaq hüququ var?

Hüquqi müdafiə vasitələri haqqında direktivlərə görə, hüquqi müdafiə vasitələrindən müəyyən bir müqavilənin tərəfi olmaqda marağı olan və ya marağı olmuş, müvafiq satınalma qaydalarının ehtimal edilən pozuntusundan zərər çəkmək riski daşıyan hər hansı təsərrüfat subyekti yararlana bilər.

Bu o deməkdir ki, müqavilənin tətlif edilməsi prosedurunda iştirak etməkdə maraqlı olduqlarını ifadə etmiş, və ya müqavilə haqqında elan verilcəyi halda maraq ifadə etmiş ola biləcək bütün təsərürfat subyektlərinin mövcud hüquqi müdafisə vasitələrindən yararlanmaq hüququ var.

Ümumiyyətlə, məhkəmə icraatı zamanı tmzilçilik və prosessual hüquq qabiliyyəti haqqına yerli qnaunlar yalnız hüquqi müdaiə vasitələri haqqında dirketivin tələblərinə maneəçilik törətmədikləri hallarda tətbiq ediləməlidirlər.

## Satınalma ilə bağlı şikayətlərə və məhkəmə işlərinə hansı orqanlar baxır?

**Satınalan təşkilatlar və ya satınalan təşkilata nəzarət edən orqan qarşısında qaldırılan şikayətlər:** Mübahisələrin məhkəmə iddiasına müraciətə ehtiyac qalmadan həll edilməsinin təşviq edilməsi məqsədi ilə yerli qanun aidiyyəti olan təsərrüfat subyektindən səlahiyyətli nəzarət orqanına ərizə verməzdən əvvəl, müqavilənin təltif edilməsi ilə əlaqədar güman edilən qayda pozuntusu ilə əlaqədar "qərara yenidən baxılması ilə bağlı vəsatəti" (başqa sözlə şikayəti) satınalan təşkilata təqdim etməyi tələb edə və ya buna icazə verə bilər. Nəzarət orqanı qarşısında icraat başladılmazdan əvvəl təqdim edildikləri üçün şikayətlər hüquqi prosedur hesab edilmir. Konkret faktlardan və şəraitdən asılı olaraq, şikayətlər qanunun icrasına və mübahisələrin sürətli və erkən həllinə gətirib çıxara bilər.

**Tribunallar və ya məhkəmələr:** Satınalma ilə bağlı işlər satınalma üzrə ixtisaslaşmış tribunal və ya adi məhkəmə qarşısına çıxarıla bilər. Aİ-yə üzv dövlətlər bu iki variant arasında seçim etməlidirlər.

## Hansı hüquqi müdafiə vasitələri mövcuddur?

Hüquqi müdafiə vasitələrinin növləri ilə əlaqədar ətraflı müddəalar bir qayda olaraq yerli qanunlara daxil edilir. Direktivlər üzv dövlətlərdən üç hüquqi müdafiə vasitəsi növünün mövcudluğunu təmin etməyi tələb edir: müvəqqəti tədbirlər, ləğv edilmə və zərərin ödənməsi

- **Müvəqqəti tədbirlər:** Müvəqqəti tədbir müqavilənin təltif edilməsi haqqında qərar daxil olmaqla, müqavilə haqqında bildiriş və müqavilənin bağlanması haqqında hər hansı qərarla əlaqədar görülən təminedici tədbirdir. Müvəqqəti tədbirlər məqsədi dəyişdirilə bilməyəcək vəziyyətlərin yaranmasının qarşısını almaq, müqavilənin təltif edilməsi prosedurunun müsabiqədə iştirak edə və ehtimal ki, qalib gələ biləcək təsərrüfat subyektinin iştirakı olmadan davam etdirilməsindən yayınmaq məqsədi daşıyır. Bu məqsədlərə yalnız yerli hüquq sistemi effektiv, sadə və sürətli təminedici tədbir nəzərdə tutduqda və səlahiyyətli nəzarət orqanı prinsip məsələsi kimi təminedici tədbirin təmin edilməsinə qarşı könülsüz mövqe nümayiş etdirmədikdə nail olmaq olar.

  Səciyyəvi olaraq aşağıdakı müvəqqəti tədbirlərə müraciət edilə bilər:

  - Satınalan təşkilat tərəfindən qəbul edilmiş hər hansı qərarın icrasının dayandırılması
  - Bütövlükdə müqavilənin təltif edilməsi prosedurunun dayandırılması
  - Qayda pozuntusunun əvvəlcədən aradan qaldırılması (bu yerli qanunlardan asılıdır və ənənəvi hal deyil)

- **Ləğv edilmə:** Bu hüquqi müdafiə vasitəsinin tətbiqi təltif edilmə ilə bağlı qəbul edilmiş qeyri-qanuni müqaviləni ləğv edir və ya etibarsız elan edir, yaxud da qeyri-qanuni vəziyyəti hər hansı başqa üsulla aradan qaldırır. Ləğv edilmənin məqsədi sübuta yetirilmiş qayda pozuntularının aradan qaldırılmasıdır. Bu məqsədə yalnız yerli hüquq sistemi qeyri-qanuni spesifikasiyaların və ya müqavilənin təltif edilməsi qərarlarının ləğv edilməsi imkanını təmin etdikdə və səlahiyyətli nəzarət orqanı müqavilənin təltif edilməsi haqqında qərarın düzgünlüyünə təkrar baxdığı halda nail olmaq mümkündür.

  Səciyyəvi olaraq aşağıdakı tədbirlərə müraciət edilə bilər:

  - Müqavilə haqqında bildirişdə, tender sənədlərində və ya müqavilənin təltif edilməsi proseduru ilə əlaqədar hər hansı digər sənəddə ayrı-seçkiliyə yol verən, texniki, iqtisadi və ya maliyyə spesifikasiyalarının ləğv edilməsi;
  - Qeyri-qanuni təltif edilmə qərarının ləğv edilməsi
  - Hər hansı qeyri-qanuni sənədin və ya müqavilənin təltif edilməsi haqqında qərarın effektiv şəkildə aradan qaldırılması, məsələn, satınalan təşkilat tərəfindən tender sənədlərindəki qeyri-qanuni bəndin dəyişdirilməsi və ya ləğv edilməsi, yaxud qanuna zidd olaraq müsabiqədə kənarlaşdırılmış təsərrüfat subyektinin bərpa edilməsi haqqında əmr verməsi.

**Müvəqqəti tədbirlərin və ya ləğv edilmə tədbirinin görülməsini tələb edən məhkəmə icraatının başladılmasına rəğmən satınalan təşkilat prosesi davam etdirə və müqaviləni təltif edə bilərmi?** Xeyr, hüquqi müdafiə vasitələri haqqında direktivlərə görə, müvəqqəti tədbirin görülməsini və ya müqavilənin təltif edilməsi haqqında qərarın ləğv edilməsini tələb edən ərizələrin məhkəmə icraatı qaydasında təqdim edilməsi halında, satınalan təşkilat nəzarət orqanı hər hansı qərar qəbul edənə qədər müqaviləni bağlaya bilməz.

- **Zərərin əvəzinin ödənilməsi:** Zərərin əvəzinin ödənilməsi dedikdə, təsərrüfat subyektlərinə dövlət satınalmaları qaydalarının pozulması nəticəsində çəkdiyi zərərə görə kompensasiya ödənişi nəzərdə tutulur. Zərərin əvəzinin ödənilməsi üçün iddianın qaldırılması proseduru və məhkəmə aidiyyəti, dəlil tələblərini, ərizənin verilməsi qaydalarını və son tarixləri, eləcə də kompensasiya dərəcəsini (tender xərclərinin hansı şərtlər daxilində ödənilə biləcəyini) müəyyən edən yerli qanunvericilikdən asılıdır. Bu hüquqi müdafiə vasitəsinin məqsədi zərərçəkmiş təsərrüfat subyektlərinə kompensasiyanın ödənilməsidir.

  Zərərin əvəzinin ödənilməsi tələbi təmin edildikdə, görülməli olan tədbir təsərrüfat subyektinin üzləşdiyi bütün zərərin ödənməsidir ki, bura ortaya çıxmış faktiki xərclər və istisna hallarda itirilmiş mənfəət daxildir. Kompensasiya tam olmalıdır – baxmayaraq ki, müsabiqə prosesində dəymiş ziyanın miqyasının müəyyən edilməsi əksərən çox çətin olur. Bu hüquqi müdafiə vasitəsi müqavilənin təltif edilməsi proseduruna, onun gedişatına və ya yekunlaşdırılmasına mane olmur.

## "Moratorium müddəti" nədir?

Satınalan təşkilatlardan müqavilənin təltif edilməsi haqqında qərarın qəbulundan qalib gəlmiş iddiaçı ilə müqavilənin bağlanmasına qədər müəyyən sayda gün müddətində gözləmək tələb olunur. "Moratorium müddəti" təklifi qəbul edilməmiş, təltif edilmə ilə bağlı qərarın qeyri-qanuni olduğunu düşünən iddiaçılara satınalan təşkilatın qərarına

etiraz etmək və müqavilənin qeyri-düzgün qərar əsasında bağlanmasının qarşısını almaq imkanı verir.

**Moratorium müddəti haqqında bildirişlə bağlı tələblər nələrdir?** Satınalan təşkilat təltif edilmə ilə bağlı qərar qəbul edən kimi, müvəffəqiyyət qazana bilməyənlər də daxil olmaqla bütün iddiaçılara və ya namizədlərə bildiriş göndərməli, daha sonra müqaviləni bağlamazdan əvvəl müəyyən sayda günün keçməsini gözləməlidir. Hüquqi müdafiə vasitələri haqqında direktivdə müəyyən edildiyi kimi bildirişə bu qərarın qəbul edilməsinin səbəbləri, xüsusilə də qalib gəlmiş iddiaçının adı, seçilmiş təklifin xüsusiyyətləri və nisbi üstünlüklərinin icmalı daxil olmalıdır; müəyyən məlumatlar verilməyə də bilər. Bildirişdə həmçinin moratorium müddətinin dəqiq müddəti göstərilməlidir, beləliklə, iddiaçılar/namizədlər istədikləri halda, təltif edilmə qərarına etiraz etmək üçün nə qədər vaxtları olduğunu öyrənə bilərlər.

**Moratorium müddəti nə qədər çəkir?** Faks və ya elektron vasitələrdən istifadə edildikdə, moratorium müddəti satınalan təşkilatın iddiaçılara və ya namizədlərə müqavilənin təltif edilməsi qərarı barədə bildiriş göndərdiyi tarixdən etibarən azı 10 gün çəkməlidir. Satınalan təşkilat müqavilənin təltif edilməsi ilə bağlı bildirişi poçt xidməti kimi başqa rabitə vasitələri ilə göndərirsə, moratorium müddəti daha da uzun çəkə bilər. Bu moratorium müddətləri yalnız minimum tələblərdir: yerli qanunvericilik daha uzun müddət müəyyən edə bilər, lakin daha qısa müddət təyin edilə bilməz.

Moratorium müddətində təklifi rədd edilmiş iddiaçılar müqavilə haqqında qərara yenidən baxılması üçün ya əvvəl şikayət prosedurundan istifadə etməklə satınalan təşkilata, ya da birbaşa nəzarət orqanına müvəqqəti tədbirlərin görülməsi, yaxud müqavilənin təltif edilməsi haqqında qərarın ləğv edilməsi üçün müraciət edə bilərlər. Seçim yerli qanunlar çərçivəsində məhkəməyə qədərki şikayətlərin nəzərdə tutulub-tutulmadığından, bu hüquqi müdafiə vasitələrinin istifadəsindən əvvəl belə şikayətlərin verilməsinin könüllü səciyyəli olub-olmaması ilə bağlıdır.

**Moratorium müddəti haqqında bildirişlə bağlı tələblər bütün təltif edilmə qərarlarına aiddirmi?** Moratorium müddəti tələbi müqavilənin təltif edilməsi haqqında qərarların əksəriyyətinə şamil edilir. Hüquqi müdafiə vasitələri direktivində azsaylı istisnalara yol verilir:

- konkret bir müqavilənin çərçivə müqaviləsi və ya dinamik satınalma sistemi əsasında təltif edilməsi qərarı qəbul edildikdə;
- 2004/18/EC direktivinə əsasən müqavilə haqqında bildirişin dərc edilməsi öhdəliyi olmadıqda;
- prosedurun təltif edilmə mərhələsinə yalnız bir iddiaçı/namizəd keçdikdə; bu halda təltif edilmə prosesində qərara etiraz etməkdə maraqlı olan və ya belə bir hüququ olan, moratorium müddətindən yararlana biləcək başqa şəxs qalmır.

## Bağlanan müqavilələrin etibarsız elan edilməsi

Hüquqi müdafiə vasitələri haqqında direktivlər üzv dövlətlərdən müəyyən şərtlər ödəndiyi təqdirdə, bağlanmış müqavilələrin etibarsız elan edilməsinə, yaxud başqa yolla ləğv edilməsinə təminat verməyi tələb edir; bura, məsələn, təltif edilmə prosedurunun müqavilə haqqında bildiriş verilmədən həyata keçirilməsi, çərçivə müqaviləsinə əsasən təltif edilən müqavilələrə tətbiq edilməli olan qaydalara riayət edilməməsi, yaxud moratorium müddəti ilə bağlı tələblərin pozulması və bununla da iddiaçıya zərər vurulması. Habelə onun müvəqqəti tədbirin görülməsini yaxud ləğv edilmə tədbirini həyata keçirilməsini tələb etmək imkanından məhrum edilməsi.

Etibarsız elan edilmə sanksiyası müqavilə bağlandıqdan sonra toxunulmazlıq qazanacağını düşünən satınalan təşkilatların moratorium müddəti tələblərinin, əsas satınalma qaydalarının pozulması hesabına belə olsa, müqaviləni bağlamağa tələsməsinin qarşısının alınması məqsədi ilə qəbul edilmişdir. Bu, dövlət satınalmaları sahəsində çalışan vəzifəli şəxslərin satınalma qaydalarını tətbiq edərkən ehtiyatlı olmağa təşviq edilməsi üçün nəzərdə tutulub. Qeyri-qanuni müqavilələrə xitam verilməsi riski ciddi riskdir. Bu yolla müqaviləsinə xitam verilən tenderdə qalib gəlmiş iddiaçının da yerli müqavilə hüququ çərçivəsində zərərinin ödənməsini tələb edə biləcəyi ilə bağlı ciddi risk mövcuddur.

İmzalanmış müqavilənin ləğv edilməsi üçün məhkəmə iddiası zərər çəkdiyini iddia edən iddiaçı tərəfindən qaldırılır. Direktiv üzv dövlətlərdən belə iddianın qaldırılması üçün minimum vaxt müddəti müəyyən etməyi tələb edir, lakin bu, minimum tələbdir, beləliklə, bu cür iddianın qaldırılması üçün son tarix və prosedurlar ətraflı şəkildə yerli qanunlar tərəfindən tənzimlənir.

Üzv dövlətlərə müqavilələri retrospektiv və prospektiv qaydada etibarsız elan etməyə icazə verilir. Beləliklə, etibarsız elan edilmənin retrospektiv, yoxsa prospektiv olacağı yerli qanunvericiliklə müəyyən edilməlidir:

- Retrospektiv: artıq yerinə yetirilmiş müqavilə öhdəlikləri daxil olmaqla, bütün öhdəliklər ləğv edilməlidir, iddiaçı və satınalan təşkilat öz münasibətlərini yerli qanunlara əsasən yoluna qoymalıdırlar;
- Prospektiv: yalnız gələcək və hələ həyata keçirilməmiş öhdəliklər ləğv edilə bilər). Üzv dövlət prospektiv ləğv edilməyə meyl etdikdə, direktiv başqa cəzaların da mövcud olmasını tələb edir. Bu əlavə cəzalar (1) satınalan təşkilat üçün qanun pozuntusunun cəzalandırılması üçün adekvat cərimənin təyin olunması və (2) müqavilənin vaxtından əvvəl dayandırılmasıdır.

Müqavilənin mühafizə edilməsinin ümumi marağa xidmət edəcəyini düşünmək üçün vacib səbəblər olduqda, Direktiv nəzarət orqanlarına öz mülahizələri əsasında fəaliyyət azadlığı verir. Qeyri-qanuni müqavilənin mühafizə edilməsi ümumi qaydadan istisna təşkil etdiyindən, bu fəaliyyət azadlığından ehtiyatla istifadə edilməlidir.

## Nəzarət orqanları və satınalan təşkilatlarının hüquqi müdafiə vasitələri ilə bağlı riayət etməli olduqları ümumi prinsiplər

Aşağıdakı ümumi prinsiplərə üzv dövlətlər tərəfindən hüquqi müdafiə vasitələri haqqında direktivlərin icrası zamanı, eləcə də nəzarət orqanları və satınalan təşkilatlar tərəfindən satınalma prosedurları zamanı əməl edilməlidir.

**Ayrı-seçkiliyin yolverilməzliyi:** Xüsusən milli mənsubiyyət zəminində ayrı-seçkiliyə yol verilməməsi şərti ilə hüquqi müdafiə vasitələrindən bütün təsərrüfat subyektləri istifadə edə bilməlidirlər. Aİ dövlət satınalmaları qaydalarının və onların şərtlərinin (son tarixlər, ərizənin təqdim edilməsi tələbləri kimi prosedur qaydaları) icra edilməsi üçün hüququ müdafiə vasitələrinə azı ölkə daxili satınalma qaydaları üçün nəzərdə tutulan hüquqi müdafiə vasitələri qədər üstünlük verilməlidir.

**Effektivlik:** Hüquqi müdafiə vasitələri Aİ dövlət satınalmaları qaydalarına riayət edilməsi üçün yetərli qüvvəyə malik olmalıdır və işlərə mümkün qədər sürətlə baxılmalıdır. Bu o deməkdir ki, satınalan təşkilatlar bütün hüquqi prosedurların düzgün həyata keçirilməsinə çalışmalı və hər zaman hüquqi müdafiə vasitələri ilə bağlı

qərarlara riayət etməlidirlər. Hüquqi prosedurlar və nəzarət orqanları tərəfindən baxışın keçirilməsi məsələnin tezliklə həll edilməsini təmin etməlidir.

**Şəffaflıq:** Satınalan təşkilatlar tender sənədləri, eləcə də müqavilənin bağlanması ilə əlaqədar bildirişlərdə təsərrüfat subyektlərinə aşağıdakılar haqqında maksimum məlumatın verilməsini təmin etməlidirlər:

- qanuna əsasən hüquqi müdafiə vasitələrindən istifadə hüququ, xüsusən təltif edilmə prosedurunun yerinə yetirilməsi ilə bağlı hüquqi müdafiə vasitələri, başqa sözlə müvəqqəti tədbirlər və ləğv edilmə ərizələri nəzərdə tutulur;
- müvafiq prosedur qaydaları, xüsusən satınalan təşkilat daxilində məhkəməyə qədərki şikayətləri qəbul edən şəxslərin/komitələrin adı və şikayətlərin verilməsi üçün son tarixlər
- təsərrüfat subyekti üçün müvafiq olması şərti ilə müqavilənin təltif edilməsi ilə bağlı qərarın necə qəbul edildiyi ilə bağlı bütün məlumatlar.

Nəzarət orqanları hüquqi müdafiə vasitələri haqqında direktivlərin tələblərinə və yerli qanunvericiliyə uyğun fəaliyyət göstərməlidir, onların fəaliyyəti və qərarların qəbulu açıq və şəffaf olmalıdır.

**Kommunal müəssisələr**

(2007/66/EC direktivi ilə düzəliş edilən) 92/13/EEC saylı direktiv də üç hüquqi müdafiə vasitəsini - müvəqqəti tədbirləri, ləğv edilmə tədbirini və zərərin ödənməsini nəzərdə tutur.

92/13/EEC saylı direktiv üzv dövlətlərə müvəqqəti tədbirlərin görülməsi və ya qeyri-qanuni qərarların ləğv edilməsi əvəzinə, satınama qaydalarının pozulmasına yol verildiyi halda, müəyyən məbləğin (mələsən cərimənin) ödənişini nəzərdə tutmaq seçimi verir. Bu məbləğ satınalan təşkilatları qayda pozuntusuna yol verməkdən (və ya kömək etməkdən) çəkindirəcək qədər yüksək olmalıdır.

Satınalan təşkilata şamil edilən moratorium müddəti, birbaşa təltif edilmələrlə bağlı bildirişin verilməsi öhdəliyi, müqavilə etibarsız hesab edildiyinə görə sanksiyalar kommunal müəssisələrə münasibətdə də tətbiq edilir.

**Əlavə ədəbiyyat siyahısı:**

SIGMA Dövlət Satınalmaları haqqında Təlimat Kitabçası